**“POS-terminalın qeydiyyatdan çıxarılması” elektron xidmətinin**

**İstifadəçi təlimatı**

**“POS-terminalın qeydiyyatdan çıxarılması” ərizəsinin** təqdim olunması məqsədilə https://new.e-taxes.gov.az Portalına daxil olub “Giriş” bölməsi seçilir.




Giriş bölməsinə daxil olduqdan sonra açılan pəncərədə “Asan İmza” və yaxud “SİMA Token” bölmələrindən biri seçilir.




İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “Asan İmza” bölməsi seçildikdə “Mobil nömrə” və “İstifadəçi ID” daxil edilir və “Daxil ol” düyməsi sıxılır.



İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “SİMA Token” bölməsi seçildikdə ilk öncə SİMA Token kompüterə qoşulur, sonra “Daxil ol” düyməsi sıxılır.




Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.




Daha sonra “POS-terminalın qeydiyyatdan çıxarılması” ərizəsinin təqdim olunması ilə bağlı “Yeni ərizə” xanasına müraciətə uyğun ərizənin adı yazılaraq axtarış nəticəsində ekranda adı əks

olunan ərizə forması seçilir və yaxud **"Hamısına bax"** düyməsi vasitəsilə yeni açılan pəncərədə müvafiq ərizə forması seçilir.




Əgər istifadəçi tərəfindən daha əvvəl bu ərizə forması doldurularaq qaralamada saxlanılmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış ərizə formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi tərəfindən əvvəllər qaralaması yaradılmış ərizə forması üzrə davam etmək istənildikdə ekranda qaralaması olan ərizə forması seçilir və bu zaman aktivləşən **"Davam et"** düyməsi sıxılır və yeni pəncərədə əvvəl doldurulmuş ərizə forması açılır və düzəliş imkanı mümkün olur.




Yeni ərizə formasını yaratmaq istədikdə isə **"Yeni ərizə yarat"** düyməsi sıxılır.




Açılmış ərizə formasında əks olunan **“Siyahıya qayıt”** düyməsi sıxıldıqda ekranda əks olunan pəncərədəki **“İmtina”** düyməsi sıxılmaqla arayış formasının doldurulmasına qaldığı yerdən davam etmək, **“Xeyr, silinsin”** düyməsi sıxılmaqla yaradılmış arayış formasını silmək, **“Bəli, yadda saxlanılsın”** düyməsi sıxılmaqla yaradılmış arayış formasının yadda saxlanılması mümkün olur.






“Xeyr, silinsin” düyməsi sıxıldıqda açılan “Xidmətin yekunlaşdırılması” pəncərəsindəki müvafiq məlumatlar doldurulduqdan sonra aktivləşən **“Göndər”** düyməsi sıxılır.




Açılan ekranda vergi orqanı və vergi ödəyicisi barədə məlumatlar avtomatik olaraq əks etdirilir.




“Vergi ödəyicisi” xanasına POS-terminalı qeydiyyatdan çıxarılacaq vergi ödəyicisinin VÖEN-i və ya adı daxil edilir.




“Əsas obyekt” xanasında POS-terminalın qeydiyyatdan çıxarılacağı obyekt seçilir. Əgər qeydiyyatdan çıxarılacaq POS-terminal əlavə obyektdə quraşdırılmışdırsa, “Əlavə obyekt” xanasına məlumat daxil edilir.




"POS-terminalın tipi" xanasında müvafiq olaraq POS-terminalın növü seçilir.




Müvafiq seçim edildikdən sonra "Stasionar POS-terminal" xanası formalaşır və bu xanaya müvafiq məlumat daxil edilir.




Növbəti mərhələdə "Qeydiyyatdan çıxarılma səbəbi" xanasında qeyd olunan 3 səbəbdən biri seçilir.




Daha sonra ərizənin göndərilməsi üçün aktivləşən "Növbəti" düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün "Qaralamada saxla və çıx" düyməsi sıxılır.




"Növbəti" düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.




"İmtina" düyməsi sıxıldıqdan sonra ekranda əks olunan "Sil" düyməsi sıxılmaqla arayış forması silinə və ya əksinə bu əməliyyatdan imtina edilə bilər.









Ərizə imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun ərizə forması və müvafiq ərizənin göndərilməsi barədə "Bildiriş" ekranda əks olunur. Həmin pəncərədə **"Çap"** düyməsi vasitəsi ilə ərizə çap edilə, **"Endir"** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **"Bağla"** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.




İstifadəçi tərəfindən göndərilən “POS-terminalın qeydiyyatdan çıxarılması” ərizəsi “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə ərizənin statusu barədə məlumat qeyd olunur.




Eyni zamanda bu hissədən də istifadəçi tərəfindən **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.


Əsas səhifə
Məktublar
Ödəniş
Ərizələr
Bəyannamələr
Büdcə ilə hesablaşmalar
ƏDV Depozit Hesabı
E-qaimə-fakturalar
Onlayn növbə
Paketlər
VÖEN üzrə sorğu
Ərizələr 2023
Filtr
Köhnə sistemə keçid
Yeni Ərizə
Hamısına bax
Göndərmək istədiyiniz ərizənin növünü daxil edin
Göndərilənlər
Qaralamalar
Təsdiq gözləyən
Sırala: Təqdim olunma tarixi
Ərizə
Qeydiyyat nömrəsi
Status
Əməliyyatlar
POS-terminalın qeydiyyatdan çıxarılması
Təqdim edildi: 17.10.2023
2317010001816200
Sənəd göndərilib
Endir
POS-terminalın qeydiyyatdan çıxarılması
Təqdim edildi: 13.10.2023
2317010001811700
Aktivdir
Endir
ƏDV məqsədləri üçün qeydiyyat
Təqdim edildi: 12.10.2023 | Son dəyişiklik tarixi: 12.10.2023
2319010018680100
İcra edilmiş
Endir
ƏDV məqsədləri üçün qeydiyyat
Təqdim edildi: 12.10.2023
2319010018679700
Aktivdir
Endir
POS-terminalın qeydiyyatı
Təqdim edildi: 12.10.2023 | Son dəyişiklik tarixi: 18.10.2022
2239010002961600
İcra edilmiş
Endir
Vergi ödəyicilərinin bank hesabının açılması
Təqdim edildi: 10.10.2023 | Son dəyişiklik tarixi: 12.10.2023
2319010018616400
İcra edilmiş
Endir
ƏDV məqsədləri üçün qeydiyyat
Təqdim edildi: 06.10.2023
2319010018577600
Aktivdir
Endir
Vergi ödəyicisinin filialının, nümayəndəliyinin qeydiyyatdan çıxarılması
Təqdim edildi: 05.10.2023 | Son dəyişiklik tarixi: 10.10.2023
2314010000042200
İcra edilmiş
Endir
ALPHA
AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ YANINDA DÖVLƏT VERGİ XİDMƏTİ
"AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
Elvin Hüseynov,
VÖEN 9900001881
Qeydiyyat tarixi 27.05.2004
Fərdi vergi təqvimi
Oktyabr 2023 - Noyabr 2023
Be Ça Ç Ca C Ş B